*Sumqayıt-70*

# YAŞIDIM VƏ YAŞADIĞIM ŞƏHƏR

Əməyə pərəstiş dünyanın qabaqcıl ölkələrinin xalqları üçün adi haldır. Sumqayıt məhz belə zəkaların—işgüzar və intellektual soydaşlarımızın şəhəridir. Həmin insanlar bu gün hamılıqla qarşıdan gələn 70 illik yubileyə hazırlaşır. Həm də yüksək coşqu və həvəslə... Bəri başdan deyim ki, 1966-cı ildən ömür yolum Sumqayıtla bağlıdır. 1969-cu ildə şəhərin 20 illiyi, 79-da 30 və nəhayət, 2009-da 60 illik yubileyləri qeyd olunan zaman mən onların fəal iştirakçısı olmuşam. Bütün onilliklər gözlərim qarşısındadır. Heç vaxt sakinlərin indiki fəallığının şahidi olmamışam. Sanki şəhər elliklə nəsə qeyri-adi təntənəli, möhtəşəm bir mərasimə hazırlaşır. Mən buna çox sevinirəm. Çünki vaxt olub ki, Sumqayıtın yubileyi heç yada düşməyib (Erməni-daşnak terrorçuları başımızı elə qatdı ki, 1989-cu ildə 40 illik, 1999-cu ildə 50 illik sükutla qarşılandı).

Bir vaxtlar mənə və yaşıdlarıma "cavan oğlan" deyə müraciət edirdilər. Onda Sumqayıt "Gənclər şəhəri" adlanırdı. İndi biz ahıllaşmışıq, Sumqayıt da artıq yaşa dolub. Bu, dialektikanın hökmüdür: hər şey dəyişir. O, indi müstəqilliyimizin bəxtli-bəxtəvər intellektualların şəhəridir. Bu, gözəl məkan hazırda 70 yaşının astanasında səmada sayrışan ulduzlar kimi bərq vurur. Toy ərəfəsi bəzənmiş gəlin kimi ətrafa ətir saçır. Hər tərəf gül-çiçək, yaşıllıq və bağbağçadır. Təmizlik, səliqə-sahman adamın üzünə gülür. Qürurla deyirəm: bu, mənim yaşıdım və yaşadığım şəhərdi.

Bəli, yaşıllığa bürünmüş və gül-çiçəyə qərq olmuş bu şəhər son illər tamam başqalaşıb, gözəlləşib. Sahilində boya-başa çatdığı mavi Xəzər, açıq səma, yaşıl parklar, xiyabanlar, abad küçələr, meydançalar və nümunəvi məhəllələr adamda xoş ovqat, nikbin duyğular, gümrah hisslər oyadır. Bu gün Sumqayıt belə parlaq rənglərin vəhdətindən yaranmış sanki gözəl bir rəsm əsəridir, istedadlı rəssam fırçasının yaratdığı nəhəng bir tablodur. Bu "tablo" kiminsə sehrli əli ilə Xəzərin sinəsindən asılmış əlvan rəngli bir boyunbağının xatırladır.

Əlbəttə, "bu gözəl rəsm əsərinin" də, Xəzərin sinəsində bərq vuran bu "boyunbağının" da real həyatda bir müəllifi, yaradanı var. Bu, sumqayıtlılardır! Bəli, məhz sumqayıtlılar... Bu gün öndə şəhərin icra başçısı Zakir Fərəcov olmaqla onun özünün yetirmələri olan kadrlarıdı.

Sumqayıt hazırda milli müstəqilliyimizin regionların inkişafı 4-cü Dövlət Proqramının icrası beşilliyini yaşayır. Bu, 2014-2019-cu illəri əhatə edən bir dövrdü. Sumqayıt bu az vaxtda eninə və uzununa iki dəfə böyüyüb, genişlənib və abadlaşıb. İndi ötən əsrin Sumqayıtı yeni Sumqayıtın əhatəsində yığcam bir ərazidir. Qabaqlar sakinlərin gecə qondu adlandırdıqları plansız yaşayış məskənləri, bağlar massivi, dənizlə şəhər arasındakı axmazlar, müxtəlif tullantılarla örtülmüş zibilliklər indi şəhərin orbitində onun ayrılmaz bir hissəsinə çevrilmişdir. Bura Yaşıl dərə, Acı dərə, Qoxlu dərə, Qurd dərəsi, Corat və Novxanı bağları və digər "ucqarlar" daxildir. Qabaqlar "ünvansız ünvan" kimi tanınan bu yerlərə indi qaz, işıq, su, yol, telefon xətti çəkilib, marşrut avtobusları ayrılıb, abadlaşdırılıb.

Sumqayıta və sumqayıtlılara sevgim altı kitab, 100-dən çox qəzet və jurnal məqaləsinin mövzusu olsa da, mən bu heyranlığımı hələ tam deyib qurtarmamışam. Etiraf edim ki, mən yaşıdım və yaşadığım bu şəhərin vurğunuyam. Bu vurğunluq onu tikən, quran, abadlaşdıran "ağ göyərçin" timsallı insanlara yönəli daha ülvi və daha coşqundur. Bu gün ağ göyərçin Sumqayıtın simvoludur. Bu nəcib quş həm də dostluğun, sülh və əmin-amanlığın, dinclik və demokratiyanın rəmzidir. Mən sumqayıtlıları bu nəcib və xeyirxah məxluqun xarakterində, Sumqayıtı isə həmin ağ libaslı səma gözəlinin obrazında görürəm. 70 yaşlı bu gənc şəhər mənim övladlarımın təvəllüd ünvanı, bağça, məktəb, mənzil və tale ünvanıdır. Onların hər birinə bəslədiyim ümid və arzular, valideyn istəyi, baba məhəbbətim Sumqayıt ünvanlıdır. Sumqayıt məkanlıdır. Sumqayıtla bağlı xəyal və xatirələrim övladlarımla əkiz doğulub, onlarla birgə pərvazlanır. Mənim övlad məhəbbətim, Vətən, ailə, dost-tanış məhəbbətim Sumqayıtda gerçəkləşib.

Şəhərin müasirləşən arxitektura siması belə deməyə əsas verir ki, Sumqayıt çox uğurla inkişaf edir. Son illər sürətlə yeniləşən və abadlaşan Sumqayıtda bir-birindən gözəl və yaraşıqlı ünvanlar, çoxmərtəbəli binalar, yeni meydan və xiyabanlar inşa edilir. Şəhərin müasir arxitektura siması formalaşır. Hazırda xoşbəxt günlərini yaşayan "ağ şəhər" dinamik inkişaf yolundadır. Müstəqillik illərində Bakı ilə yanaşı addımlayan sənaye şəhəri hazırda davamlı müasirləşmə dövrünün yeni mərhələsini yaşayır. Bu inkişafın təməlində dövlətin diqqət və qayğısı dayanır. İqtisadi yüksəliş, sosial tərəqqi, genişmiqyaslı abadlıq və yenidənqurma işləri bugünkü Sumqayıt üçün tarixi reallıqdır. Sumqayıtlılar bu reallıqlara zəhmətsevər şəhər sakinlərinin səyi və əməyi sayəsində nail olmuşlar. Son illər Prezident İlham Əliyevin Sumqayıta davamlı və müntəzəm səfərləri həmin insanlara diqqətinin parlaq təzahürüdür. Dövlət başçısı Sumqayıtın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair bir sıra göstərişlər vermiş, müvafiq sərəncam və sənədlər imzalamışdır. Prezidentin tapşırığına əsasən şəhərdə müxtəlif infrastruktur layihələri həyata vəsiqə almış, yeni məktəb binaları, ictimai iaşə, idman və digər xidmət obyektləri tikilmiş, mədəniyyət ocaqları əsaslı təmir edilmiş, şəhərin park və xiyabanları yüksək zövq və sənətkarlıqla, müasir tələblər səviyyəsində yenidən qurulmuşdur. İndi sumqayıtlıların ən sevimli istirahət məkanlarından biri Heydər Əliyev Parkıdır. Burada yaşıllığın fonunda müasir modern tikililər, cazibədar görkəmi ilə diqqəti cəlb edən kafe və köşklər parka əsrarəngiz gözəllik bəxş edir. Əlvan gecə işıqları, sayrışan lampalar parkın gözəlliyinə sehrli, romantik bir məzmun verir. Kompleks yenidənqurma, abadlaşdırma və yaşıllaşdırma işləri nəticəsində park son illər daha da gözəlləşmişdir. Sumqayıtlıların fəxr etdiyi Dənizkənarı bulvar, Nəsimi parkı tamamilə yenidən qurulmuş, bura sakinlərin ən gözəl gəzinti, istirahət və seyrangahına çevrilmişdir. Dənizkənarı bulvar kompleksində müasir şəhərsalma və arxitektura tələblərinə cavab verən yaraşıqlı xidmət obyektləri, kafe, restoran və digər istirahət guşəsi tikilmiş, əyləncə meydançaları salınmışdır. "Yaşıl teatr" parka gələnlər üçün sevimli ünvana çevrilmişdir. Bir-birini tamamlayan Bulvar və Parkda son bir neçə il ərzində ardıcıl olaraq aparılan çox böyük quruculuq-abadlıq işləri nəticəsində onun arxitektura siması tamam dəyişmişdir. İndi o, ölkəmizin ən gözəl park-bulvar kompleksindən biri sayılır. Sakinlərin mədəni istirahətinə qayğı şəhər rəhbərliyinin daim diqqət mərkəzindədir. Şəhərdə aparılan köklü islahatlar, geniş vüsət alan yenidənqurma işləri insanlara xoş ovqat bəxş edir.

Şəhər ildən-ilə daha da gözəlləşir, tərəqqi edir. Son illər ölkəmizin hər yerində olduğu kimi, Sumqayıtda da tikinti sektoru görünməmiş dərəcədə inkişaf etmişdir. Xüsusən özəl tikinti şirkətlərinin inşa etdiyi tikintilərin miqyası ilbəil genişlənir. Hazırda Heydər Əliyev prospektindəki çoxmərtəbəli yaşayış binaları şəhərə xüsusi gözəllik bəxş edir. "Sülh" küçəsi tamamilə yenidən qurulmuş, miqyaslı abadlıq işləri aparılmışdır. Prospekt başdan-başa abadlaşdırılıb və yenidən qurulub. 17-ci və 19-cu məhəllələrdə müasir arxitektura tələblərinə cavab verən yaraşıqlı hündürmərtəbəli yaşayış binaları tikilib. Şəhərin perspektiv inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən yeni infrastruktur layihələr işlənib hazırlanır.

Sumqayıt daim Bakıya doğru sürətlə "irəliləyir". Şəhərin "Daş bazarı" deyilən səmtdən başlayıb avtovağzala qədər "Koroğlu" prospekti bütünlüklə yenidən qurulmuş, onun hər iki tərəfi, piyada yolu, səkilər tanınmaz dərəcədə dəyişmiş, burada işıqlandırma və yaşıllaşdırma işləri aparılmışdır. Şəhər memarlarının layihəsi əsasında Sumqayıtda çoxlu müasir memarlıq üslubunda yeni cəlbedici binalar tikilmişdir. Bu gün Sumqayıtda memarlıq baxımından daha çox göz oxşayan yaşayış binalarının tikintisinə ciddi önəm verilir. Gənc nəslin rahatlığı üçün lazımi şərait yaradılır, bir-birindən yaraşıqlı yüksəkmərtəbəli, müasir memarlıq üslubunda yaşayış binaları inşa olunur.

Bu gün özünün intibah dövrünü yaşayan Sumqayıt müasir Avropa şəhərsalma mədəniyyətinə yiyələnməkdədir. Müasir və milli memarlığımızı özündə birləşdirməklə Qərb şəhərlərinin elit yaşayış komplekslərindən ibarət planlaşdırma üstünlük təşkil edir. Bir, iki, üç və dördotaqlı mənzillərdən ibarət yaşayış binalarının yüksək seysmik davamlılığı və möhkəmliyi üçün keyfiyyətli tikinti materiallarından istifadə olunur.

Ötən illər görülmüş işlər, həyata keçirilmiş layihələr nə qədər çox olsa da, artıq onlar arxada qalmışdır. İndi şəhər yubiley qayğıları ilə yaşayır. Şəhərin avtomobil yolları yenidən qurulur. Şəhərdaxili yolların bərpasına xüsusi diqqət yetirilir. Yubiley ilində şəhərin bir vaxtlar bağ massivi sayılan ünvanlara gedən 100 kilometrdən çox daxili yolları yenidən qurularaq asfaltlaşdırılmışdır. Bütün bunlar sakinlər tərəfindən çox müsbət qarşılanır və yüksək qiymətləndirilir. Şəhərimiz memarlıq və şəhərsalma baxımından özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş, küçələrin vahid memarlıq layihəsi əsasında qurulması, obyektlərin tikintisində forma və üslub cəhətdən bir-birini tamamlaması xüsusilə diqqəti cəlb edir. Məhəllə və mikrorayonların abadlaşdırılaraq yenidən qurulması, "Nümunəvi məhəllə"lərin yaradılması istiqamətində görülən işlər şəhərin 70 illik yubileyi ərəfəsində geniş vüsət almışdır.

Ötən əsrin 50-60-cı illərində radioda çox tez-tez səslənən bu mahnı:

*Canlanır hər qarış yer Sumqayıtda,*
*Xariqələr yaradır el Sumqayıtda, -*

yenidən şəhər sakinlərinin dilində həvəslə səslənməkdədir. Bu onu göstərir ki, doğma şəhərin 70 illiyinə hazırlaşan sumqayıtlılar ötən əsrin coşqun quruculuq ruhunu yenidən yaşamaqdadır.

Sumqayıt bütün Qafqazda, yaşıd şəhərlər arasında inamla əzəmətli liderlik mərhələsinə qədəm qoyur. Düzdür, o, həmişə ön sırada olub, amma liderlik əzəməti başqa ehtişamdır. Açığını deyim ki, indi zövqlər başqalaşıb, daha doğrusu, zövqlər də qloballaşıb, yəni dünya şəhərlərini görmək, gəzmək əlçatan olub. Öz doğma Sumqayıtımızı başqa "gənc" şəhərlərlə müqayisə etmək imkanlarımız xeyli artıb. Hər bir şəhərin öz təbii cazibəsi, üstün məziyyətləri var. Mən doğma şəhərimin daha xoşbəxt gələcəyinə ürəkdən inanıram. Sumqayıtı mənə və başqalarına sevdirən təbii üstünlüklər göz qabağındadır. Bunlardan ən başlıcası onun sahil şəhəri olmasıdır. Bizim doğma Xəzər onu sevimli övladı kimi bağrına basmışdır. Perspektivdə Sumqayıtın həm də liman şəhəri olmaq şansı var. Bu, əfsanəvi dəniz turizmi deməkdir. Söz turizmdən düşmüşkən qeyd edim ki, yerləşdiyi coğrafi mövqeyinə görə, Sumqayıtın səma turizm məkanına çevriləcəyi gün uzaqda deyil. Burada Xəzərin sahilindən Xızı dağlarına doğru, Siyəzən-Şabran meşələrinin üzərindən şimala sarı uzanan kanat yolu minlərlə turistə sevinc və heyrət bəxş edəcək (Qəbələdə Şah dağının ətəyində yaradılmış belə bir qurğu ilin bütün fəsillərində uğurla fəaliyyət göstərməkdədir. Bu nümunə Sumqayıt üçün də reallaşa bilər).

Şəhərimizin ikinci və ən ümdə təbii üstünlüyü ondan ibarətdir ki, bir tərəfdən dəniz havası, digər tərəfdən quru çöl havası, şəfalı dağ havası və nəhayət, ətirli, təmiz bağ havası ilə "qidalanır". Bu ondan irəli gəlir ki, şəhər cənub-şərqdən dənizlə, qərbdən Xızı dağları, şimaldan Siyəzən-Şabran meşəliyi, Quba-Xaçmaz bağ massivi ilə əhatələnmişdir.

Üçüncü təbii üstünlük ondan ibarətdir ki, Sumqayıt günəşli şəhərdi. Bu günəş qaynar səhra günəşi, solğun şimal günəşi deyil, həyatverici Qafqaz günəşidir. Burada ilin 10 ayı günəş səmada bərq vurur. Yayda bir-iki ay ətrafa od saçır, 8-9 ay həyatımızı nura qərq edir. Yaxın gələcəkdə burada günəş enerjisi ilə işləyən obyektlərin sayı sürətlə artacaq. Nəhayət, Sumqayıt səması, hava hövzəsi durğun, lal sükunətdən çox uzaqdır. Külək və meh buranın daimi "sakinidir".

Əlbəttə, belə gözəl ünvandan, onu öz halal əməyi ilə daha cazibədar edən, ucaldan insanlardan yazmağın ayrı ləzzəti var. Mən bunları təsvir və təbliğ etməkdən doymuram. Onlar çox adi adamlardı. Onları birləşdirən bir nəcib xüsusiyyət var: əməyə, Vətənə, ədalətə sevgi.

Hər səfər Sumqayıt və sumqayıtlılar haqqında yeni bir yazı qələmə alanda öz-özümdən soruşuram: Məni yazmağa sövq edən, ruhumu qanadlandıran nədir? Sevgi? Peşə vərdişi? Borc? Əslində bunların hamısı. Xalqıma, Vətənimə və müqəddəs əməyə sevgi mənim qələmimin mühərrikidir. Əlimə qələm alıb onlar haqda nəsə yazarkən mən Vətənimin sadə zəhmət adamlarından birinə çevrilirəm. Çalışıram ki, öz yazılarımla soydaşlarımızı fikrən və mənən qidalandırım, onlara pozitiv enerji, ruh yüksəkliyi bəxş edim. Təsadüfi deyil ki, qələmə münasibət həmişə yüksək olub, ona "xalqın vicdanı" deyiblər. Mən qələmi əlimə alanda bu fikrin məsuliyyəti gəlib durur gözümün qabağında: Xalqın vicdanı olmaq məsuliyyəti... Nə qədər ağır yükdür!

Sumqayıtla bağlı mənim yalnız bir mövzum var: mühitim və müasirlərim. Bu gözəl məkanı və onun şanlı-şöhrətli insanlarına həsr etdiyim kitabların hamısı bu ruhda köklənib. Kim öz mühitində və müasirləri arasında öz yerini tapmağı bacarırsa, o xoşbəxt insandır. Mən Sumqayıt və sumqayıtlılar haqqında yazanda bunu dəfələrlə hiss etmişəm: Şəhərə göndərilən başçılar təkcə burada rəhbərlik etməyib, həm də öz obrazlarını yaratmışlar.

Bizim Sumqayıt hər gün təzələnir, təravətlənir və abadlaşır. Mənim üçün Sumqayıt xəyallarımda yüksələn, yeniləşən, əsrarlı bir nağıl deyil, gözlərimin qarşısında gözəlləşən, böyüyən, nəhəngləşən bir real aləmdir. Onun küçələrinin hər biri mənim üçün gözəl bir sənət əsəridir, poemadır, simfoniyadır. Mən ilk dəfə bu sehrli aləmə "Sülh" küçəsindən daxil olmuşam. "Dostluq" küçəsi ilə dayımgilə getmişəm. Müdriklərimizin adını daşıyan Nizami, N.Nərimanov, Səməd Vurğun, Cəfər Cabbarlı küçələri ilə addımladıqca, sanki tariximizə səyahət etmişəm, ulularımızla görüşüb onları yad etmişəm. Evlərin divarlarına bərkidilmiş barelyeflərin qarşısında dayanıb xəyala dalmışam. Buradakı genişliyi, təmizliyi, yaşıllığı görüb şəhərə vurulmuşam, təhsili başa vurduqdan sonra bu şəhərdə yaşamaq istəmişəm. Xoşbəxtəm ki, bu arzuma çatmışam. Sumqayıtın pasport qeydiyyatına düşəndə uşaq kimi sevinmişəm. İnşaatçılar, metallurqlar, kimyaçılar və mühəndislər şəhərin sakini olduğum üçün bu gün də qürur duyuram. İndi, yubiley ərəfəsində bu şəhəri inşa edənlər, quranlar, onların layiqli davamçıları olan intellektuallar tərəfindən layiqincə yad olunur və qiymətləndirilir. Mənim yaşıdım və yaşadığım şəhərin ümdə üstün məziyyətlərindən biri məhz budur: nəsilləri bir-biri ilə bağlayan minnətdarlıq duyğusu!

**Qalib ƏHMƏDOV.**